HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

HÜQUQ SAHƏSİNDƏ
MƏQALƏ DƏRC EDƏN JURNALLARA DAİR

# MONİTORİNQ HESABATI

Bakı - 2024

HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

# Hüquq sahəsində məqalə dərc edən jurnallara dair MONİTORİNQ HESABATI

## Giriş

Bu hesabat ölkədə dərc olunan hüquq jurnallarının hazırkı durumu barədə məlumatların toplanması və vahid elektron bazasının yaradılması məqsədilə hazırlanıb. Hüquqşünaslar (109 respondent) və hüquq jurnalları (13 respondent) arasında elektron sorğu keçirməklə hüquq jurnallarının və onlara olan münasibətin qiymətləndirilməsi hazırkı monitorinqin əsas istiqamətini təşkil edib.

Hesabat üç bölmədən ibarətdir. *Birinci bölmədə* monitorinqin aparılması metodologiyası təsvir edilmişdir. Bu bölmədə monitorinqin məqsədi, aparılma qaydası və təşkili ilə bağlı texniki məsələlərdən bəhs olunur.

*İkinci bölmədə* hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri barədə məlumatlar əks olunur. Bu bölmədə hüquqşünasların iş təcrübəsi, vəzifəsi, hüquq jurnallarında dərc olunan məqalələrin oxunma vəziyyəti, ən çox oxunan jurnallar, jurnallara məqalə yazmaq maraqları, yazılan məqalələrin çap olunmasına dair rəylər, hüquq jurnalları ilə əlaqədar problemlər, jurnalların vahid elektron bazasının yaradılmasına olan maraq və hüquqşünasların təklifləri barədə məlumatlar verilir.

*Üçüncü bölmədə* hüquq sahəsində məqalə dərc edən jurnallar arasında keçirilən sorğunun nəticələri barədə məlumatlar qeyd olunur. Bu bölmədə jurnalın adı, təsis edildiyi il, dərc edilmə tezliyi və dili, Ali Attestasiya Komissiyasının siyahısında yer alması, saytı və sosial-media hesabı, məqalələrin çap üçün təqdim edilməsi və qəbulu, əməkdaşların və abunəçilərin sayı, hər hansı buraxılışın elektron versiyasının oxunma sayı, beynəlxalq reytinq və ya data-bazada yer alması, eləcə də jurnalların fəaliyyətində rast gəlinən əsas problemlərdən bəhs edilir.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – "AAK") Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında **hüquq elmləri üzrə jurnalların sayı 16 elm sahəsi üzrə 422 jurnalın cəmi 4,0%-ni təşkil edir**. Bu, müxtəlif elm sahələri üzrə məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında ən aşağı göstəricidir.

AAK-ın siyahısında hüquq elmləri sahəsi üzrə yer alan 18 jurnaldan 12-si sorğuda iştirak edən hüquqşünaslar tərəfindən ən az oxunan jurnallar sırasındadır. AAK-da doktorantlar üçün 5 elmi məqalənin ən azı 3 jurnalda çapı tələbi qoyulur. Monitorinqin nəticələrindən də göründüyü kimi, AAK-ın siyahısına daxil olan jurnalların hüquqşünaslar tərəfindən ən az oxunmasını nəzərə alsaq, bu hal AAK-ın siyahısına, eləcə də hüquq məqalələri üçün qoyulan tələblərə yenidən baxılmasını zəruri edir.

Respondentlər tərəfindən **ən çox oxunan 5 hüquq jurnalı** sırasında AAK-ın siyahısında olan yalnız 1 jurnal - "Qanun" jurnalı yer alır, digər 4 jurnal AAK-ın siyahısına daxil deyil. Sorğuda iştirak edənlərin rəyinə əsasən ən çox oxunan hüquq jurnalları aşağıdakılardır:

1. “Qanun” jurnalı;
2. “Azərbaycan Vəkili” jurnalı;
3. “Baku State University Law Review” jurnalı;
4. “Qanunçuluq” jurnalı;
5. "İnjuria" jurnalı.

Monitorinqin nəticələri onu deməyə əsas verir ki, hüquq icması arasında hüquq sahələri ilə bağlı məqalələr oxumağa və yazmağa maraq böyükdür, lakin jurnalların elektron formatda əlçatan olmaması və dərc edilən məqalələrin keyfiyyətinin aşağı olması bu sahənin inkişafına mane olur. Jurnalların əsas probleminin dərc edilmə üçün kifayət qədər maliyyə vəsaitinin olmadığını nəzərə alaraq (respondentlərin 38,5%-i), bu jurnalların vahid elektron portalda oxuculara təklif edilməsi məqsədəmüvafiq olardı.

## 1. Metodologiya

Monitorinqin ümumi məqsədi ölkəmizdə dərc edilən hüquq jurnalları barədə hüquqşünasların fikir, təklif və iradlarını bir araya toplamaqdan və daha sonra hüquq sahəsində dərc edilən jurnalların vahid elektron bazasını yaratmaqdan ibarətdir.

Monitorinqin uzunmüddətli məqsədi hüququn ayrı-ayrı sahələri üzrə, o cümlədən insan hüquq və azadlıqları sahəsində elmi-tədqiqat potensialının artırılması və hüquq nəşrlərinin yayımının dəstəklənməsindən ibarətdir.

Monitorinq Google Form üzərindən elektron sorğular vasitəsilə həyata keçirilib. Sorğu barədə məlumatlar və sorğunun linkləri İnstitutun saytında və facebook hesabında, eləcə də xalqqazeti.az, qht.az və e-huquq.az saytlarında dərc edilib. Qeyd olunan informasiya resurslarında sorğuya dair yazıların oxunma sayı 2500-dən çox olub[1].

Bununla yanaşı, monitorinqin əhatə dairəsinin genişləndirilməsi məqsədilə sorğunun linkləri tanınmış hüquqşünaslara fərdi qaydada da təqdim edilib.

Bəzi jurnalların sorğuya cəlb olunmasında müəyyən problemlərə də rast gəlinib. Belə ki, bir sıra jurnalları heç bir elektron resursda tapmaq mümkün olmayıb. Bəzi jurnalların əlaqə vasitələri işləmədiyi və ya dəyişdiyi üçün onlar şəxsi əlaqələrdən istifadə etməklə və şifahi müsahibələr keçirməklə sorğuya cəlb edilib.

Hüquqşünaslar üçün sorğuda 109, jurnallar üçün sorğuda ümumilikdə 13 respondent iştirak edib.



2024-cü il mayın 3-də hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar və hüquqa dair məqalə qəbul edən jurnallar arasında keçirilən monitorinqin nəticələrinə həsr olunan dəyirmi masa keçirilib. Hüquq jurnallarının təsisçilərinin, baş redaktorlarının və hüquqşünasların iştirakı ilə keçirilən tədbirdə hüquq sahəsində məqalə dərc edən jurnallarla bağlı mövcud vəziyyət geniş təhlil edilib və bu sahədə işlərin yaxşılaşdırılması üçün təkliflər irəli sürülüb. Tədbirdə AAK-ın siyahısına daxil olan

[1] Həmin xəbərlərin linkləri aşağıdakılardır:
- https://www.facebook.com/share/8hnZMqkHyz7XRrJR/?mibextid=WC7FNe
- https://xalqqazeti.az/az/sosial-heyat/175057-huquqi-nesrlerden-nece-istifade-edirik
- https://www.qht.az/details/az/30934
- https://www.e-huquq.az/az/news/xeberler/86230.html

jurnalların oxunaqlığının aşağı səviyyədə olması qeyd edilməklə, jurnalların elektron versiyalarının hazırlanması və yayımı, onların maddi-texniki bazasının gücləndirilməsi, beynəlxalq səviyyəyə uyğunlaşdırılması və vahid elektron bazasının yaradılmasına dair fikirlər səsləndirilib.

Monitorinqdə hüquqşünasların təcrübəsi, hüquq jurnallarında dərc olunan məqalələrin oxunması və yazılması vəziyyəti, hüquq jurnalları ilə bağlı problemlər və bu jurnalların vahid elektron bazasının yaradılması məsələsinə hüquqşünasların münasibəti təhlil olunur.

Monitorinq 18 aprel – 3 may 2024-cü il tarixləri arasındakı dövrü əhatə edir.

## 2. Hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri

### 2.1. Hüquqşünas kimi təcrübəniz nə qədərdir?

Sorğuda 109 nəfər hüquqşünas iştirak edib. Sorğuda iştirak edənlərin 61,5%-i hüquqşünas kimi 5 ildən çox təcrübəsi olan şəxslərdir. Bu da, öz növbəsində, sorğuya verilən cavabların və nəticələrin böyük təcrübəyə əsaslanması barədə fikir formalaşdırır.

| | | |
|---|---|---|
| • 1-5 il | 42 | 38,5 % |
| • 5-15 il | 39 | 35,8 % |
| • 15 il və daha çox | 28 | 25,7 % |
| **Cəmi** | **109** | |




### 2.2. Yaşınız

Sorğuda iştirakla bağlı yaş məhdudiyyəti tətbiq olunmayıb. Sorğu iştirakçılarının 35 və 55 yaşadək olan iştirakçıları sayca bir-birinə çox yaxındır və əsasən, bərabərlik təşkil edir.

| | | |
|---|---|---|
| • 18-35 yaş | 59 | 54,1 % |
| • 35-55 yaş | 45 | 41,3 % |
| • 55 yaş və daha çox | 5 | 4,6 % |
| **Cəmi** | **109** | |



**2.3. Vəzifəniz**

Sorğuda hakimlər, vəkillər, tədqiqatçılar, prokurorlar və digər sahədə çalışan hüquqşünaslar iştirak ediblər. Ən çox iştirakçı digər sahələrdə çalışan hüquqşünaslar tərəfindən müşahidə olunub. Sorğu iştirakçılarının 36,7%-ini hüquqşünaslar, 28,4%-ini vəkillər, 15,6%-ini tədqiqatçı alimlər, 13,8%-ini hüquq tələbələri, 5,5%-ini isə hakim və prokurorlar təşkil edib.




**2.4. Siz Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuyursunuzmu?**

Son dövrlərdə ictimai fikirdə jurnallara olan marağın aşağı olması və onların oxunmaması barədə fikirlər formalaşıb. Bu məsələnin araşdırılması üçün sorğuya məhz belə bir sual daxil edilmişdi. Respondentlərin 71,6%-i Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuduqlarını bildiriblər. Bu göstəricinin özü hüquq sahəsində dərc olunan məqalələrə və hüquq jurnallarına olan marağı ifadə edir. Sorğu iştirakçılarının 28,4%-nin bu məqalələri oxumaması, əsasən, həmin yazıların əlçatan olmaması və bəzi hallarda məqalələrin keyfiyyətinin aşağı olması ilə əlaqələndirilir.




| | | | |
|---|---|---|---|
| a) | Bəli | 78 | 71,6 % |
| b) | Xeyr | 31 | 28,4 % |
| | **Cəmi** | **109** | |

**2.5. Ən çox oxuduğunuz 3 hüquq jurnalı hansılardır**

Respondentlərə təqdim olunan 23 hüquq jurnalından hər bir hüquqşünasın ən çox oxudu 3 jurnal barədə fikirləri öyrənilib. Respondentlərin ən çox oxuduğu jurnallar sırasında birinci yeri 45% göstərici ilə “Qanun” jurnalı tutur. Ən çox oxunan jurnalların sırasındakı ilk beşlikdə

“Qanun” jurnalı istisna olmaqla, digər 4 jurnalın heç biri AAK-ın siyahısına daxil deyil. Eyni zamanda, onu da qeyd etməliyik ki, “Qanun” jurnalı ödənişli jurnaldır və buna baxmayaraq hüquqşünaslar pulsuz jurnallarla müqayisədə ona daha çox üstünlük verirlər.




## 2.6. Azərbaycanda dərc edilən hüquq jurnallarına məqalə yazmaqda maraqlısınızmı?

Respondentlərin 76 nəfəri Azərbaycanda dərc olunan hüquq jurnallarına məqalə yazmaqda maraqlı olduqlarını bildiriblər. Bu göstərici hüquq sahəsində dərc olunan məqalələrə və hüquq jurnallarına olan marağı ifadə edir. 33 nəfər iştirakçı isə məqalə yazmaqda maraqlı olmadıqlarını qeyd edib. Bunun da əsas səbəbi kimi bəzi hallarda jurnalların reytinqinin aşağı olması qeyd edilib.



**2.7. Təqdim etdiyiniz məqaləni jurnal qəbul edibmi?**

Monitorinq zamanı hüquq jurnallarında məqalələrin qəbulu ilə bağlı vəziyyət də araşdırılıb. Respondentlərin 50,5%-i jurnallara bununla əlaqədar müraciət etmədiklərini, 48,6%-i isə jurnalların onların məqalələrini qəbul etdiklərini bildirib.




**2.8. Məqalənizin qəbul və ya çap olunmasından imtinanı əsaslı hesab edirsinizmi?**

Respondentlərin 90,8%-i məqalənin qəbul və ya çap olunmasından imtina halının baş vermədiyini bildirirlər. Buradan aydın görünür ki, əsaslı səbəb olmadığı halda məqalənin çapından imtina edilmir.



**2.9. Hüquq jurnalları ilə əlaqədar hansı problemləri qeyd edə bilərsiniz?**

"Hüquq jurnalları ilə əlaqədar hansı problemlərin olması" sualına respondentlərin 39,4%-i jurnalları rahatlıqla tapa bilmədiklərini bildirirlər. Digər bir problem kimi yazılan məqalələrin keyfiyyətinin aşağı olması göstərilir. Respondentlərin 25,7%-i bu fikirdədir. Respondentlərin 11,9%-i digər problemlərlə yanaşı, jurnalların baha olmasını da qeyd edir.




**2.10. Hüquq jurnallarının vahid elektron bazası yaradılarsa, ondan istifadə etməkdə maraqlı olarsınızmı?**

Cavablardan da göründüyü kimi, respondentlərin mütləq əksəriyyəti - 98,2%-i (107 nəfər) hüquq jurnallarının vahid elektron bazasının yaradılması ideyasını dəstəkləyir. Bu da ilk növbədə hüquq jurnallarının elektron versiyasının hazırlanmasını, onlardan rahat istifadənin və əlçatanlığın təmin edilməsi üçün vahid bazada yerləşdirilməsi məsələsini aktuallaşdırır.



**2.11. Hüquq jurnallarına dair hansı təklifləriniz var?**

80 respondent (73,4%) tərəfindən ən çox verilən ümumiləşdirilmiş təkliflər aşağıdakılardır:

1. Jurnalların vahid elektron bazasının yaradılması və həmin bazanın əlçatan olması. Bu təkliflə 21 nəfər çıxış edib;
2. Hüquq jurnallarında məqalənin çap qiymətinin aşağı salınması və jurnalların qiymətinin ucuzlaşdırılması. Bu təkliflə 9 nəfər çıxış edib;
3. Hüquq jurnallarında yerləşdirilən məqalələrin keyfiyyətinin artırılması məqsədilə jurnallarda xüsusi yoxlama komissiyasının yaradılması. Bu təkliflə 9 nəfər çıxış edib;
4. Jurnalların ictimai maraqlara xidmət edən elmi platformalara çevrilməsi, çap olunmuş məqaləyə istinadlara görə qonorarın təklif edilməsi. Bu təkliflə 6 nəfər çıxış edib;
5. Texnologiyanın inkişafını nəzərə alaraq müvafiq sahədə araşdırma-təhlilə əsaslanan mövzulara yer verilməsi. Audio məqalələrin hazırlanması. Jurnallara məqalə qəbulu prosesinin asanlaşdırılması üçün onlayn sistemin tətbiqi, eləcə də məqalələrin Google axtarış sistemi ilə tapılması üçün DOİ kodun olması. Bu təkliflə 5 nəfər çıxış edib;
6. Jurnalların beynəlxalq elmi bazalara daxil edilməsi. “BSU Law Review”-dan başqa heç bir jurnal, nə “Scopus” və “HeinOnline”da, nə də heç bir beynəlxalq elmi məlumat bazasında dərc edilmir. Bunu nəzərə alaraq, elmi məqalələrin hazırlanmasında beynəlxalq təcrübənin tətbiq edilməsi. Bu təkliflə 4 nəfər çıxış edib;
7. Jurnallarda hüquqşünaslardan ibarət redaksiya heyəti formal xarakter daşımamalıdır. Plagiatın yoxlanılmasının təkcə elektron proqramlarla deyil, həm də hüquqşünas elmi redaktorların yaxından iştirakı ilə həyata keçirilməsi. Bu təkliflə 3 nəfər çıxış edib;
8. Aktual problemləri əhatə edən mövzular, xüsusilə vahid məhkəmə təcrübəsini formallaşdıran qərarların təhlili və müzakirəsi ilə bağlı məqalələrin sayının artırılması. Bu təkliflə 3 nəfər çıxış edib;
9. Hüquq jurnallarında orijinallıq, yenilik, faydalılıq kimi maddi tələblərin yoxlanılması və bu yöndə maarifləndirmə işlərinin aparılması. Bu təkliflə 2 nəfər çıxış edib;
10. Jurnallarda peşəkar hüquqşünas alimlərin, xüsusilə xarici ölkələrin nüfuzlu hüquqşünas alimlərinin məqalələrinin Azərbaycan dilinə tərcümə olunmuş variantının dərc edilməsi;
11. Jurnalların regionlarda satışının təşkil olunması.

## 3. Hüquq sahəsində məqalə dərc edən jurnallar arasında sorğu

### Jurnalın adı

Sorğuda iştirak etmək üçün 22 hüquq jurnalına ("Naxçıvan" jurnalının artıq fəaliyyət göstərmədiyi müəyyən edilmişdir) müvafiq müşayiət məktubu ilə sorğunun linkləri və mayın 3-də keçirilən tədbirə dəvət göndərilib. Bütün bu cəhdlərə baxmayaraq sorğunu aşağıdakı 13 jurnal cavablandırıb:

1. "Elmi məcmuə" jurnalı
2. "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı
3. ELSA Azərbaycan Hüquq Jurnalı (ELSA Azerbaijan Law Review)
4. "İnjuria" jurnalı
5. "Hüquqi Elmlər və Təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование
6. "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı"
7. "Gənc tədqiqatçı" jurnalı
8. "Qanun" jurnalı
9. "Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri" jurnalı
10. "Nəqliyyat hüququ" jurnalı
11. "Elmi əsərlər" jurnalı (İctimai elmlər seriyası)
12. "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı
13. "Qanunçuluq" jurnalı.

### Jurnalın təsis edildiyi il

Sorğuda iştirak edən 2 jurnal - "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" və "Qanunçuluq" jurnalları nəzərəçarpacaq tarixə malikdir (1960-1966). Bu jurnalların 60 illik təcrübəsi var. Ümumilikdə, 13 jurnaldan 6-sı 2000-ci ilə qədər, 8 jurnal isə 2000-ci ildən sonrakı dövrdə təsis olunub. Bu barədə məlumatlar aşağıdakı cədvəldə verilir:

| S/n | Təsis edildiyi il | Jurnalı adı |
|---|---|---|
| 1. | 1960 | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı |
| 2. | 1966 | "Qanunçuluq" jurnalı |
| 3. | 1992 | "Qanun" jurnalı |
| 4. | 1997 | "Elmi əsərlər" jurnalı (İctimai elmlər seriyası) |
| 5. | 1999 | "Elmi məcmuə" jurnalı |
| 6. | 1999 | "Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri" jurnalı |
| 7. | 2003 | "Hüquqi Elmlər və Təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование |
| 8. | 2004 | "Nəqliyyat hüququ" jurnalı |
| 9. | 2013 | "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı |
| 10. | 2014 | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" |
| 11. | 2015 | "Gənc tədqiqatçı" jurnalı |
| 12. | 2017 | "ELSA Azərbaycan Hüquq Jurnalı" (ELSA Azerbaijan Law Review) |
| 13. | 2020 | "İnjuria" jurnalı |

**Jurnalın dərc edilmə tezliyi**

Sorğuda iştirak edən 13 jurnaldan 7-si rüblük (53,8%), 4 jurnal ilin müəyyən dövrlərində, 2 jurnal isə aylıq dərc olunur ("Qanun" və "Qanunçuluq" jurnalları).




**Jurnal məqalələri hansı dillərdə qəbul edir?**

Sorğuda iştirak edən jurnalların demək olar ki, əksəriyyəti Azərbaycan dili ilə yanaşı, digər dillərdə də məqalələr dərc edirlər. Rus dilində məqalə dərc edənlərin sayı isə sorğuda iştirak edənlərin 69,2%-ni təşkil edir.



**Jurnal Ali Attestasiya Komissiyasının siyahısında yer alıbmı?**

Sorğuda iştirak edən jurnallardan 8-i AAK-ın siyahısında yer alır.




**Jurnalın veb-səhifəsi varmı?**

Sorğuda iştirak edən 13 jurnaldan 10-nun veb-səhifəsi var. 3 jurnalın isə ("ELSA Azərbaycan Hüquq Jurnalı", "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" və "Qanunçuluq" jurnalları) veb-səhifəsinin olmadığı qeyd olunur.



**Jurnalın sosial media hesabları varmı?**

Rəyi soruşulan 13 jurnaldan cəmi 7-nin sosial media hesabları var. 6 jurnalın isə heç bir sosial media hesabı yoxdur.




**Jurnala çap üçün məqalə təqdim edilərkən plagiat olub-olmaması yoxlanılırmı?**

Rəyi soruşulanların hamısı məqalələr təqdim edilərkən plagiat yoxlamaya cəlb olunduğunu bildiriblər.



**Jurnala məqalə qəbulu**

Sorğuda iştirak edən jurnalların 69,2%-i məqalələri ödənişsiz qəbul etdiyini qeyd edir.




**Jurnalda çalışan əməkdaşların sayı?**

Jurnallarda çalışan əməkdaşların sayı bütün jurnallarda əsasən eynilik təşkil edir.




**Redaksiya heyəti ictimai əsaslarla çalışır?**

Bütün jurnallarda redaksiya heyətlərinin ictimai əsaslarla çalışdığı qeyd olunur.

**Jurnala abunə olan şəxslərin sayı**

Sorğuda iştirak edən 13 jurnaldan 6-da abunənin olmadığı, 2 jurnalda quruma aid aidiyyəti şəxslər, 1 jurnalda isə abunənin məlum olmadığı qeyd olunur. 4 jurnala isə abunələr var, ən çox abunə "Qanunçuluq" jurnalında qeydə alınıb.

| S/N | Jurnalın adı | Abunə haqda məlumat |
|---|---|---|
| 1. | “Qanunçuluq” jurnalı | 1000 |
| 2. | “İnjuria” jurnalı | 300 |
| 3. | “Elmi məcmuə” jurnalı | 50 |
| 4. | “Qanun” jurnalı | vardır |
| 5. | "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı | Vəkillər Kollegiyasının üzvləri |
| 6. | "Elmi əsərlər" jurnalı (İctimai elmlər seriyası) | məqalə müəllifləri və zəruri ünvanlar sayında |
| 7. | ELSA Azərbaycan Hüquq Jurnalı | yoxdur |
| 8. | “Hüquqi Elmlər və Təhsil” jurnalı | yoxdur |
| 9. | “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı” | yoxdur |
| 10. | “Gənc tədqiqatçı” jurnalı | yoxdur |
| 11. | “Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri” jurnalı | yoxdur |
| 12. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | yoxdur |
| 13. | “Nəqliyyat hüququ” jurnalı | məlum deyil |

**Jurnalın hər hansı buraxılışının elektron versiyasının oxunma və ya yüklənmə sayı**

Cavablardan məlum olur ki, əksər jurnalların sosial media hesabları mövcud deyil. Cəmi 6 jurnalın sosial media hesabı var və burada da ən çox oxunma “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı”nda qeydə alınıb.

| S/N | Jurnalın adı | Oxunma sayı |
|---|---|---|
| 1. | “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı” | 4000 |
| 2. | "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı | 1000-dən çox |
| 3. | “Gənc tədqiqatçı” jurnalı | 100-300 |
| 4. | "Elmi əsərlər" jurnalı (İctimai elmlər seriyası) | 20-50 aralığında |
| 5. | “Hüquqi Elmlər və Təhsil” jurnalı | 2024-cü il,1-ci rüb üzrə 68 |
| 6. | “İnjuria” jurnalı | Saytda elektron versiyada dərc olunur. |
| 7. | ELSA Azərbaycan Hüquq Jurnalı | Statistika mövcud deyil. |
| 8. | “Qanun” jurnalı | Statistika aparılmır. |
| 9. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | Statistika aparılmır. |
| 10. | “Nəqliyyat hüququ” jurnalı | Məlumat yoxdur. |
| 11. | “Elmi məcmuə” jurnalı | Məlumat yoxdur. |
| 12. | “Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri” jurnalı | Məlumat yoxdur. |
| 13. | “Qanunçuluq” jurnalı | Məlumat yoxdur. |

### Jurnalın satışda olan qiyməti (əgər satılırsa)

Sorğuda iştirak edən jurnallardan yalnız 3-ü ödənişlidir, digər jurnalların hamısı ödənişsiz qaydada paylanılır. Ən bahalı jurnal 20 manata satılır.

| S/N | Jurnalın adı | Jurnalın qiyməti |
|---|---|---|
| 1. | "Hüquqi Elmlər və Təhsil" jurnalı | 20 manat |
| 2. | "Qanunçuluq" jurnalı | 6 manat |
| 3. | "Qanun" jurnalı | 4 manat |
| 4. | "İnjuria" jurnalı | elektron |
| 5. | "Elmi məcmuə" jurnalı | ödənişsiz |
| 6. | "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı | ödənişsiz |
| 7. | ELSA Azərbaycan Hüquq Jurnalı | ödənişsiz |
| 8. | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" | ödənişsiz |
| 9. | "Gənc tədqiqatçı" jurnalı | ödənişsiz |
| 10. | "Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri" jurnalı | ödənişsiz |
| 11. | "Nəqliyyat hüququ" jurnalı | ödənişsiz |
| 12. | "Elmi əsərlər" jurnalı (İctimai elmlər seriyası) | ödənişsiz |
| 13. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | ödənişsiz |

### Jurnalınız beynəlxalq reytinq və ya data-bazada yer alıbmı?

Sorğuda iştirak edən 10 jurnal beynəlxalq data-bazada mövcud deyil. Jurnalların beynəlxalq reytinq və data-bazada yer alması cəmi 3 jurnalda müşahidə olunub:

- "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı;
- "Hüquqi Elmlər və Təhsil" jurnalı;
- "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı".



**Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər**

Jurnalların fəaliyyətində rastlaşılan əsas problemlər kimi çap üçün maliyyə vəsaitlərinin azlığı və dərc olunması üçün göndərilən məqalələrin standartlara cavab verməməsi qeyd olunur.




## Monitorinqin nəticələrinin qısa xülasəsi

- Hüquq jurnallarının elektron versiyasının geniş tətbiqinin zəruriliyi müşahidə olunur;
- Əksər jurnalların elektron versiyasının mövcud olmadığı bildirilir;
- Hüquq jurnallarının vahid elektron bazasının yaradılmasının vacibliyi qeyd olunur;
- Hüquq sahəsində dərc olunan məqalələrə hüquqşünaslar tərəfindən böyük maraq göstərildiyi müşahidə olunur;
- Hüquqşünasların Azərbaycanda dərc olunan hüquq jurnallarına məqalə yazmaqda maraqlı olduqları bildirilir;
- Hüquq jurnallarının rahatlıqla tapılmasının (xüsusən regionlarda) mümkün olmadığı bildirilir;
- Jurnallarda yazılan məqalələrin keyfiyyətinin aşağı olması göstərilir. Məqalələrin keyfiyyətinin artırılması üçün jurnallarda xüsusi yoxlama komissiyalarının yaradılmasının vacibliyi qeyd olunur;
- Jurnallarda çap olunmuş məqaləyə istinadlara görə qonorarın verilməsi təklif olunur;
- Elmi məqalələrin hazırlanmasında beynəlxalq təcrübənin tətbiq edilməsi və bununla əlaqədar gənc hüquqşünaslar üçün təlimin keçirilməsi təklif olunur;
- Hüquq jurnallarının beynəlxalq reytinqinin yüksəldilməsi üçün zəruri addımların atılmasının vacibliyi qeyd olunur;
- Jurnallarda xarici ölkələrin nüfuzlu hüquq alimlərinin məqalələrinin Azərbaycan dilinə tərcümə olunmuş variantlarının dərc edilməsi qeyd olunur;
- Bəzi jurnalların sosial media hesabları mövcud deyil;
- Əksər jurnallar beynəlxalq data-bazada yer almır;
- Jurnallara göndərilən məqalələrin standartlara uyğun olmadığı bildirilir;
- Jurnalların çap etdirilməsi üçün maliyyə vəsaitinin çatışmazlığı qeyd olunur.

## Hüquq məqalələri dərc edən jurnalların SİYAHISI

| S/n | Jurnalın adı | Telefonu | E-mail ünvanı və internet səhifəsi |
|---|---|---|---|
| 1) | "Qanun" jurnalı | (012) 431 16 62<br>(055) 695 27 97 | qanunjurnali1992@gmail.com<br>www.facebook.com/qanun.jurnali.3<br>https://www.qanun.az/category/qanun-jurnali |
| 2) | "Azərbaycan Vəkili" jurnalı | (012) 594 08 70<br>(050) 266 77 99 | office@barassociation.az<br>https://barassociation.az/journal |
| 3) | “Baku State University Law Review” jurnalı | (055) 394 00 35 | lawreview@bsulawss.org<br>www.facebook.com/bsulr<br>https://lr.bsulawss.org/ |
| 4) | "Qanunçuluq" jurnalı | (012) 510 10 01<br>(012) 537 06 40 | contact@justice.gov.az<br>mojpress@justice.gov.az<br>aynur-sabitova@mail.ru<br>www.facebook.com/qanunculuq |
| 5) | "İnjuria" jurnalı | (012) 404 13 52 | info@injuria.az<br>www.facebook.com/injuria.az<br>https://www.injuria.az/category/arxiv |
| 6) | “ELSA Azerbaijan Law Review” jurnalı | (070) 359 59 11 | lawreview@az.elsa.org<br>www.facebook.com/ ELSAAzerbaijanLawReview<br>https://issuu.com/elsaazerbaijan |
| 7) | "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı | (012) 454 34 57<br>(012) 554 99 84 | policeacademy@pa.edu.az<br>https://www.pa.edu.az/?/az/menu/100/ |
| 8) | “Azərbaycan Hüquq Jurnalı” | (012) 538 31 10<br>(050) 331 31 66 | al.amir.ibr@gmail.com<br>turgay@legcon.org<br>https://ahj.az/az/ |
| 9) | "Bakı Universitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası)" jurnalı | (012) 538 87 39<br>(012) 538 50 16 | bdumetbee@gmail.com<br>http://bsu.edu.az/az/content/bak_universitetinin _xbrlri_sosialsiyasi_elmlr_seriyas |
| 10) | "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı | (012) 361 14 02 | htihm@prosecutor.gov.az<br>https://genprosecutor.gov.az/az/page/media/ azerbaycan-prokurorlugu-jurnali |
| 11) | "Hüquqi Elmlər və Təhsil" jurnalı | (012) 496 95 74<br>(050) 340 36 99 | info@iolr.org<br>https://www.iolr.org/?page_id=43 |
| 12) | "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı | (050) 331 31 66<br>(055) 340 50 44 | al.amir.ibr@gmail.com<br>info@jilip.org<br>http://jilip.org/az/ |
| 13) | "Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiyanın | (012) 598 53 72 | info@expert.gov.az |

| | | | |
|---|---|---|---|
| | Aktual Məsələləri" jurnalı | | |
| 14) | “AMEA-nın Məruzələri" jurnalı | (012) 492 80 07 | ameakatib@mail.ru |
| 15) | "Cəmiyyət və cəza" jurnalı | (012) 493 24 86 | info@penitensiar.justice.gov.az<br>https://penitensiar.justice.gov.az/home/1 |
| 16) | "Nəqliyyat Hüququ" jurnalı | (012) 533 97 90<br>(050) 210 24 42 | intranslaw@rambler.ru<br>transportlaw@intranslaw.com<br>https://law-plane.az/ |
| 17) | "Elmi məcmuələr" jurnalı | (012) 525 98 08 | em@naa.edu.az<br>https://science.naa.edu.az/az/elmi-m%C9%99cmu%C9%99l%C9%99r/ |
| 18) | "Elmi əsərlər. İctimai elmlər seriyası" jurnalı | (036) 545 45 59<br>(036) 544 08 61 | elmi.hisse@mail.ru<br>www.jurnal.ndu.edu.az/# |
| 19) | "Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə" jurnalı | (012) 492 65 29<br>(012) 437 19 75<br>(012) 497 71 86 | publishing@dia.edu.az<br>https://dia.edu.az/arxivl%C9%99r/research/dovlet-idareciliyi-nezeriyye-ve-tecrube-jurnali |
| 20) | "Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri" jurnalı | (055) 465 85 27 | journal@oyu.edu.az<br>https://oyu.edu.az/az/research/9 |
| 21) | "Sosial elmlər" jurnalı | (012) 492 51 80<br>(055) 558 10 80 | socialsciences.anas@gmail.com<br>https://socialsciences.az/ |
| 22) | "Gənc tədqiqatçı" jurnalı | (050) 450 50 64 | genctedqiqatchi@gmail.com<br>gencalim@science.az<br>https://gencalimler.az/az/content/318 |

HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

**İnstitutun saytı**
**www.lhri.az**

**Virtual kitabxana**
**https://lhri.az/az/library**

**Facebook səhifəsi**
**fb.com/www.lhri.az**


**"Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxs**
Bakı şəhəri, Hüseyn Cavid prospekti 125, AZ1143
info@lhri.az
www.lhri.az
+994125372073